# FHN Şimal-qərb Regional Mərkəzində Heydər Əliyevə həsr olunmuş tədbir




Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzində ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Qəbələ rayon İcra Hakimiyyətinin məsul işçisi Zahid Əfəndiyev, Qəbələ Rayon Ağsaqqallar Şurasının sədri Nazim Mustafayev, Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov, FHN Dövlət Yanğın Nəzarəti Xidmətinin (DYNX) Şimal-qərb Regional DYNİ-nin əməkdaşları, FHN DYMX-nin Qəbələ rayon DYMH-nin əməkdaşları, Dövlət Sularda Xilasetmə Xidmətinin Qəbələ Sularda Xilasetmə məntəqəsinin əməkdaşları iştirak edirdilər.

İlk öncə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Mərkəzin həyətindəki büstünün önünə güllər qoyaraq xatirəsini ehtiramla yad etdilər.

Tədbiri açıq elan edən Şimal-qərb Regional Mərkəzinin rəisi, mayor Sadiq Bəkirli ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı əvəzsiz xidmətlərindən danışaraq dövlət müstəqilliyinin qorunub saxlanılması, ordu quruculuğu, respublikamızın sosial-iqtisadi inkişafı və digər sahələrdəki misilsiz fəaliyyətini qeyd etdi. «Heydər Əliyev irsində Vətən sevgisi, azərbaycançılıq, xalq, millət sevgisi, insanın vətəninə, xalqına, dövlətinə sədaqət hissi mühüm yer tutur. Bu irsin qorunması və gələcək nəsillərə çatdırılması, hər bir gəncdə azərbaycançılıq ideologiyasının formalaşdırılması, gənc nəslin dövlətçilik ənənələrinə sədaqət ruhunda tərbiyə olunması ən vacib şərtlərdən biridir»—deyə, natiq vurğuladı.

Sonra tədbir iştirakşıları ümummilli lider Heydər Əliyev haqqında sənədli filmi izlədilər.



Film izləndikdən sonra çıxış edən RİH-nin məsul işçisi Zahid Əfəndiyev bildirdi ki, ölkəmizin müasir tarixini onun memarı olan Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. Adı Azərbaycanın, bütövlükdə türk dünyasının tarixinə qızıl hərflərlə yazılmış ümummilli liderimizin Azərbaycanın işıqlı gələcəyinə yönəlmiş ideyaları bu gün də yaşayır, reallaşır və inkişaf edir. Natiq sonra çıxışında ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə respublikamızda aparılan quruculuq və abadlıq işlərindən bəhs etdi.

Sonra rayon Ağsaqqallar şurasının sədri Nazim Mustafayev Heydər Əliyevin Qəbələyə səfərlərindən, rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov ulu öndərin apardığı gənclər siyasətindən, Mərkəzin Ərazi orqanları ilə iş şöbəsinin rəisi, baş leytenant Tural Ağayev ümummilli liderin ordu quruculuğu siyasətindən bəhs edən çıxışlar etdilər.

Tədbirin sonunda Mərkəzin rəisi Sadiq Bəkirli qeyd etdi ki, ulu öndərin bizlərə əmanət qoyduğu çiçəkli Azərbaycanı qorumaq üçün hər birimizin üzərinə böyük vəzifələr düşür. Bunun üçün hər birimiz üzərimizə düşən vəzifəni layiqincə yerinə yetirməli, bu istiqamətdə Heydər Əliyev irsini daim öyrənməliyik.

**FHN Şimal-qərb Regional Mərkəzinin ictimaiyyətlə əlaqə və təbliğat sektoru.**

# Əvəzsiz lider

Qəbələ Diaqnostika Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illiyi ilə əlaqədar geniş tədbir keçirilmişdir. Mərkəzin 100-dən artıq əməkdaşının qatıldığı bu tədbirdə diaqnostika Mərkəzinin baş həkimi Bəxtiyar Haqverdiyev geniş məruzə etmişdir.

Natiq vurğulamışdır ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev öz xalqının və dövlətinin həyatında heç kəsə bənzəməyən rol oynamış şəxsiyyətlərdən biri olmuşdur. O, özünün şüurlu həyatını başdan-başa siyasi mübarizəyə həsr etmiş, xalqın və milli dövlətçiliyin xidmətində durmuşdur. Xalqımız ulu öndərin həyat tarixçəsinin istənilən səhifəsini yaxşı bilir, onu layiqincə qiymətləndirməyi bacarır.

Heydər Əliyev müasir, qüdrətli Azərbaycan dövlətinin memarı, xalqımızın şəriksiz lideridir. O, ömrünün Dövlət Təhlükəsizliyi Komitəsində keçən illərində yüzlərlə soydaşımızın müxtəlif təzyiqlərdən qurtarılmasında və xilas olunmasında xeyli işlər görmüşdür. 1969—1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi, elmi-texniki və mədəni inkişafı üçün misilsiz xidmətlər göstərmişdir. Azərbaycanı sürətlə inkişaf edən sənaye respublikasına çevirmiş, Azərbaycan dilinin Konstitusiya səviyyəsində dövlət dili elan olunması, çoxlu sayda milli kadrların yetişdirilməsi üçün ölkə təhsilində köklü islahatlar aparılması və digər taleyklu məsələlərin həyata keçirilməsi yolunda var gücünü əsirgəməmişdir.

Ulu öndərin Moskvada SSRİ rəhbərlərindən biri kimi fəaliyyət göstərdiyi illərdə də əli respublikamızın üstündən əskik olmamışdır.

1990-cı ildə Azərbaycanda yanvar faciəsi günlərində Kremlin gözü qabağında SSRİ rəhbərliyini ittiham edərək sərt bəyanatlar söyləyən Heydər Əliyev bu addımı ilə Azərbaycan azadlıqsevərlərinin tək olmadığını sübuta yetirmişdir.

Ulu öndər respublikamıza qayıtdıqdan sonra siyasi fəaliyyətini Naxçıvanda davam etdirmişdir. O, dövlətimizin atributlarından biri olan üçrəngli bayrağımızı rəmzi olaraq Muxtar Respublikanın bayrağı kimi rəsmiləşdirmişdir. Həmin dövrdə, yəni 1992-ci ilin noyabr ayında qüdrətli siyasi təşkilat olan Yeni Azərbaycan Partiyasının yaradılmasına nail olmuşdur.

Ölkəni xaos və anarxiya bürüyəndə, respublika vətəndaş müharibəsinin bir addımlığına gətiriləndə, ölkə ərazisi parçalanmaq təhlükəsi ilə üzləşəndə milli ziyalılarımızın təkidi ilə Heydər Əliyev Bakıya gəldi. Beləliklə, ulu öndərin Azərbaycanda 2-ci dəfə hakimiyyətə gəlməsi dövrünün əsası qoyuldu.

1994-cü ilin mayında Ermənistanla Azərbaycan arasında atəşkəs müqaviləsi imzalandı. Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşuldu. Həmin ilin sentyabr ayında əsrin neft müqaviləsi imzalandı, ilk milli Konstitusiya qəbul edildi, milli parlament formalaşdırıldı. Bütün bunlar Heydər Əliyev müdrikliyinin və siyasi uzaqgörənliyinin nəticəsi idi. Heydər Əliyev gələcəyə böyük ümidlərlə baxırdı. Ondan sonra hakimiyyətə gələn Prezident İlham Əliyevin hakimiyyəti Azərbaycan tarixində müasirləşmə ilə səciyyələnir. Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan mütərəqqi, dinamik inkişaf yolunu seçmişdir. Onun rəhbərliyi altında Heydər Əliyev siyasəti bu gün də uğurla həyata keçirilməkdədir.

Ölkə tərəqqi edir, tikinti-quruculuq işləri genişləndirilir, Azərbaycan borc alan dövlətdən borc verən dövlətə çevrilmişdir. Müxtəlif regional layihələr uğurla həyata keçirilir, investisiya axını güclənir, iqtisadiyyat dinamik inkişaf etdirilir.

Regionların sosial-iqtisadi inkişafı cənab İlham Əliyevin yorulmaz fəaliyyəti ilə bağlıdır. Azərbaycan xarici siyasətdə uğurlarını ardıcıl davam etdirir, indi dövlətimiz BMT Təhlükəsizlik Şurasının qeyri daimi üzvü kimi artıq söz sahibinə çevrilmişdir.

Müasir Azərbaycan ulu öndər Heydər Əliyevin şah əsəridir. Bütün Azərbaycan xalqı kimi biz də bir kollektiv olaraq unudulmaz dövlət xadimi, əvəzsiz bir insan olan Heydər Əliyevin xatirəsini əziz tutur, bu yubiley günündə onu ehtiramla yad edirik.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur. Çıxış edənlərdən baş həkimin mualicə işləri üzrə müavini Kamal Məmmədov, YAP Diaqnostika Mərkəzi ilk təşkilatının sədri İlkin Mikayılzadə, həkim Vahid Babayev və digərləri ulu öndərin mənalı və zəngin həyat yolundan danışmışlar. Tədbiri baş həkim Bəxtiyar Haqverdiyev yekunlaşdırmışdır.

**İlham SEYİDOV,**
**mərkəzin əməkdaşı.**